# Təhsil sistemində modernləşdirmənin mərhələləri və müəllimin peşə səriştəliliyinin ona təsiri

**Aysel Qulaməli qızı Balaşova**
*Bakı Qızlar Universiteti*
**E-mail:** b.aysel2020@gmail.com

**Rəyçilər:** p.ü.e.d., prof. İ. H. Cəbrayılov,
p.ü.f.d. P.M. Həsənova

**Açar sözlər:** təhsildə modernləşdirmə, elmi-texniki tərəqqi, müasir təhsil, peşə səriştəliliyi
**Ключевые слова:** модернизация образования, научно-технический прогресс, современное образование, профессиональная компетентность
**Key words:** modernization in education, scientific and technical progress, modern education, professional competence

Azərbaycanda müasir dövrün modernləşmə proseslərinin izahına postmodern (postmodernizm - XX əsrin sonlarının geniş yayılmış ideya cərəyanlarından biri olub. Qərb sivilizasiyasının, elmi ənənələrin və ictimai paradiqmasının böhranı ilə bağlı olmuşdur. “Post” sözönü başa çatmaqda olan modern dövrünün varisi və onu əvəzləyən mərhələ olduğunu göstərir) yanaşma bir sıra məqamlara aydınlıq gətirir. Belə ki, müstəqil Azərbaycanda siyasi inkişaf prosesləri və modernləşmə tarixi-siyasi xüsusiyyətlər və milli-mənəvi təməllər üzərində yaranır. Bu o demək deyil ki, inkişaf proseslərinə mövcud nəzəri yanaşmalar inkar edilir. Əksinə, onların məzmunu yaşanılan zamanın mahiyyətini daha dərin əks etdirən qloballaşma proseslərinin zəruri etdiyi postmodern nəzəri paradiqma aspektində daha da zənginləşir. Siyasi məkanda bir qisim tamamilə Qərb modelinin mexaniki tətbiqinin tərəfdarıdır və onun təsiri altındadır. Buna görə də modernləşməni həyata keçirən “subyekt-vətəndaş” amili əsaslı məsələdir.

Azərbaycan təhsil sisteminin modernləşdirilməsinin ən vacib problemlərindən biri təlim prosesində səriştəliliyin nəzəri, pedaqoji-psixoloji əsaslarının işlənilməsi və ondan istifadənin səmərəliliyinin yüksəldilməsidir. XXI əsrin əvvəllərində ölkəmizdə, təhsil sahəsində aparılan islahatların məzmunu və xarakteri belə elmi-pedaqoji tədqiqatların səmərəliliyini və effektivliyini bir daha artırdı.

Modernləşmə - vətəndaş cəmiyyətinin biliklərə əsaslanan müasir cəmiyyətin formalaşması ilə bağlı müxtəlif sosial proseslər və hadisələri xarakterizə edən ümumiləşdirilmiş anlayışdır. Təhsilin modernləşdirilməsi təhsilalanların və təhsilverənlərin qarşılıqlı fəaliyyətinin xüsusi təşkil edilmiş, məqsədyönlü, sistemli və idarə olunan prosesdir ki, bu zaman bilik, bacarıq və vərdişlərin mənimsənilməsi baş verir, məktəblilərin təhsili və inkişafı həyata keçir. Bu anlayış həmçinin ailədə və təhsil müəssisələrində müsbət keyfiyyətləri formalaşdırmaq, nümunəvi davranış vərdişləri aşılamaq üçün məqsədyönlü, sistemli, fasiləsiz və mütəşəkkil şəkildə həyata keçirilən proses kimi anlaşılır. Təhsilin modernləşdirilməsi davamlı sülh və təhlükəsizliyin təminatında ümumi, müştərək qlobal dəyərlərin və əməkdaşlığın inkişafı naminə rəqabət aparmağa malik intellekt sahiblərinin yetişməsinə geniş imkanlar açır. Yüksək səviyyəli təhsilin çox önəmli rolu vardır. O, davamlı sülh və təhlükəsizliyin təminatçısıdır.

Müasir cəmiyyətə keçid modernləşmə adlanır ki, bütün dəyərlərin və əsasların çevrilməsi ilə bağlı olur. Təhsilin modernləşməsi, “təhsil sistemində dəyişikliklər məqsədi ilə, islahata xas olan əsaslı dəyişiklik, səmərəliliyin artırılması və müasirləşdirilməsini” nəzərdə tutur (V.İ.

Zaqvyazinskiy).

Müasir dövrümüzdə elmi-texniki nailiyyətlər, ictimai-siyasi baxışlarda meydana çıxan sürətli inkişaf və modelləşmə cəmiyyətin yeni dinamik inkişaf səviyyəsini meydana çıxardı. Bu yeni inkişaf isə sərhədləri aşdı. Başqa sahələrdə olduğu kimi təhsil sahəsində də nümunəvi təcrübələrin mübadiləsinə, inteqrasiyaya ehtiyac yarandı. Bu mühit inkişaf etmiş ölkələrdə təhsil almağa həvəsli, azad düşüncəli və daha ağıllı gənclər yetişdirdi. Elə diplomlara ehtiyac yarandı ki, onun sahibi istədiyi ölkədə təhsilini davam etdirmək və işini qurmaq istəyini reallaşdıra bilsin. İndiki təhsilin məqsədi ondan ibarətdir ki, əmək bazarının tələbləri nəzərə alınaraq, rəqabətəqabil şəxsiyyət formalaşdırılsın, inkişaf etdirilsin.

Müasir dövrdə dünyada qloballaşma, inteqrasiya proseslərinin tədricən güclənməsi təhsil sistemində də müvafiq olaraq modernləşdirmənin gerçəkləşdirilməsinə təkan vermişdir. Təhsil sisteminin modernləşdirilməsi hər şeydən əvvəl, təhsilin bütün pillələrində köklü dəyişikliklərin aparılması, bu istiqamətdə məqsədyönlü işin davamlı olaraq təşkilini tələb edir. Dünya ölkələrinin təcrübəsi göstərir ki, təhsilin modernləşdirilməsi rəqabətəqabil şəxsiyyətin formalaşması, nəticə etibarilə cəmiyyətin özünün inkişaf dinamikasnın sürətləndirilməsində böyük rol oynayır. Apardığımız araşdırmalar təsdiqləyir ki, Azərbaycanda həyata keçirilən təhsil islahatları təhsilin modernləşməsinə yönəlmiş və bu imkanlar modern təhsilin formalaşmasına təminat verir. Belə bir cəhəti qeyd etməliyik ki, Azərbaycan Respublikasının Konstitusiyasında, Təhsilin inkişafı üzrə Dövlət Strategiyasında və digər müvafiq dövlət sənədlərində respublikamızın təhsil sistemindəki struktur və məzmun yenilikləri əksini tapmışdır.

Araşdırmalar göstərir ki, təhsilin modernləşdirilməsi bir sıra zəruri amillərlə bağlıdır. Həmin amilləri qruplaşdıraraq aşağıdakı şəkildə göstərmək olar:

1) müasir dövrdə cəmiyyətin inkişaf dinamikasının sürtləndirilməsi;

2) sənaye və informasiya cəmiyyəti kimi xarakterizə edilən hazırki şəraitdə mədəniyyətlərarası ünsiyyət və tolerantlıq meyllərinə diqqətin artırılması;

3) rəqabətin getdikcə gücləndiyi şəraitdə iqtisadiyyatın inkişaf tempinin daha da sürətlənməsi;

4) kadrların peşə səriştəliliyinin formalaşdırılmasına və inkişafına verilən tələblərin müasirliyi;

5) xarici ölkələrlə əməkdaşlıq və ümumi təhsil imkanın yaradılması.

Davamlı inkişaf mexanizmi dövlətin hər kəsə təhsil almaq üçün bərabər imkanlar yaratması, təminat verməsi, təhsilin keyfiyyətinin ardıcıl olaraq yüksəldilməsi, onun dövlət-ictimai xarakterinin gücləndirilməsi, büdcədənkənar əlavə mənbələrdən təhsilin inkişafı məqsədi ilə istifadə edilməsi, müəllimlərin, təhsil işçilərinin sosial statusunun gücləndirilməsi və digər məsələlərlə səciyyələnir.

Təhsildə əldə olunmuş saysız nailiyyətlərə baxmayaraq, hələ də inkişafetdirici mühitin təşkilində çatışmazlıqlar vardır: məsələn, təlimdə İKT qurğularının səmərəli istifadəsi, hər bir müəllimin kompüterdə işləmək imkanın artırılması işi təşkil olunması, elektron dərslik və dərs vəsaitlərinin tətbiqi sahəsində olan problemlər, təhsil islahatı prinsiplərinin reallaşması müəllim-tələbə münasibətlərinə də yeni prizmadan baxmaq və s.

Müasir dövrdə ölkəmizdə aparılan təhsil islahatları respublikamızda təhsilin inkişafı üçün geniş imkanlar açmışdır. Belə ki, Azərbaycan təhsili milli zəmin üzərində qurulmaqla, həm də Avropaya, dünya təhsil məkanına inteqrasiya edir. Qabaqcıl dünya məkanının təhsil sahəsində nailiyyətləri, qazandıqları təcrübə öyrənilir, ölkələr arasında təhsil sahəsində qarşılıqlı əməkdaşlıq tədricən genişlənir. Məhz belə bir şəraitdə respublikamızda təhsilə diqqət və qayğının getdikcə artması təqdirəlayiq bir haldır.

Araşdırmalar göstərir ki, təhsil cəmiyyətin inkişafında əsas amillərdən biridir. Bu əsas istiqamətlər sırasında millilik mühüm yer tutur. Təhsilin milli zəmin üzərində inkişafı şəxsiyyətin mənsub olduğu dövlətə-Azərbaycan Respublikasına, Azərbaycan xalqına, onun adət-ənənələrinə, soy-kökünə bağlılığı ilə əlaqədar mühüm əhəmiyyət kəsb edir. Ona görə ki, hər bir gənc, hər bir vətəndaş yaşadığı ölkəsini inkişaf etdirməyə çalışmalı, öz ölkəsinin dövlətçilik tarixi, milli-mənəvi dəyərləri ilə fəxr etməlidir. Belə şəxsiyyətlər təbii ki, ölkəmizin ictimai-siyasi, sosial-iqtisadi, mədəni həyatında daim fəal iştirak edəcək, azərbaycançılıq ideyasını əsas götürərək milli maraqları hər şeydən yüksək tutacaq, milli təfəkkürün daşıyıcısı olaraq ənənə və müasirliyin vəhdətini düzgün anlayacaqdır (1, s. 9).

Elmi biliklərə yiyələnmə təhsil prosesində baş verir, təhsil almaqla, özünütəhsillə əldə edilir. Ona görə də ümumtəhsil məktəblərində, qazanılan biliklər daim təkmilləşdirilməli, yeni dövrün tələblərinə uyğun bilik və bacarıqlar qazanılmalıdır. Bu, hər bir təhsilalanın eyni zamanda peşə səriştəliliyinin inkişafına da şərait yaradır. Respublikamızda aparılan təhsil islahatları pedaqoji innovasiyalara geniş yol açmaqla yanaşı, Avropa təhsil standartlarına uyğun gələn yeniliklər aparmağı, innovasiyaları tətbiq etməyi zəruri edir. Müəllimlərin peşəkarlıq və səriştəlilik səviyyəsinin artırılması bu zəruriyyətdən irəli gələrək günümüzün prioritet vəzifələrindən birinə çevrilir. Dünyada baş verən pedaqoji yenilikləri mənimsəmək, onlardan istifadə etmək və yeniliklər yaratmaqla pedaqoji fəaliyyətin məzmununu dərinləşdirmək aktual problem olaraq təhsilimizin qarşısında durur.

Dünya təhsil sistemlərində mövcud olan pedaqoji yeniliklərin öyrənilməsi və tətbiq edilməsi, həmçinin, yaradıcı pedaqoqlar, müəllimlər tərəfindən yeniliklər yaratmaqla onların tətbiq edilməsi müəllimlərdən yaradıcı pedaqoji təfəkkür, təşəbbüskarlıq tələb etdiyindən onların peşəkarlıq və səriştəlilik səviyyələrinin artırılması, innovasiyaları öz fəaliyyətlərinə gətirmələri mühüm əhəmiyyətə malikdir.

**Məqalənin aktuallığı.** Müasir təhsilin modernləşmə istiqamətlərinin və innovasiyaların tətbiqində təhsilverənlərin peşə səriştəliliyinin artırılmasının araşdırılması məqalənin aktuallığını şərtləndirir.

**Məqalənin elmi yeniliyi.** Məqalədə XXI əsr təhsilinin gələcək perspektivləri araşdırılır.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Məqalədən magistrantlar, təhsil işçiləri və pedaqoji sahədə təhsilalanlar faydalana bilərlər.

## Ədəbiyyat

1. Cəbrayılov İ.H. Müasir təhsil: axtarışlar və perspektivlər. Bakı: Mütərcim, 2013.
2. Mehrabov A.O. Müasir təhsilin konseptual problemləri. Bakı: Mütərcim, 2010, 516. s.34.
3. Wealth And Demokracu Go Hand In Hand.//http: // www. Gfmag.com/archives / 140-july-august-2011/11303-wealth-a.
4. Малькова З.А. Школа и педагогика зарубежом. М., 1983.
5. Нейматов Я.Н. Образование в XXI веке М., 2002.
6. Педагогика народов мира. М., 2000.
7. http:// www.ziwa.org/ Cluster. aspx.

**А.Г. Балашова**

## Этапы модернизации системы образования и влияние на нее профессиональной компетентности педагога

## Резюме

Глобализация и постепенное усиление интеграционных процессов в современном мире дали толчок к модернизации системы образования Модернизация системы образования требует коренных изменений на всех уровнях образования, организации целеенаправленной работы в этом направлении. Модернизация образования играет важную роль в формировании конкурентоспособной личности и, следовательно, в ускорении динамики собственного развития общества.

**A.G. Balashova**

## Stages of modernization of the education system and the impact of the teacher's professional competence on it

## Summary

The globalization and gradual strengthening of integration processes in the modern world have given impetus to the modernization of the education system. The modernization of the education system requires radical changes at all levels of education, the organization of purposeful work in this direction. Modernization of education plays an important role in the formation of a competitive personality and, consequently, in accelerating the dynamics of society's own development.

**Redaksiyaya daxil olub:** 28.03.2022